# Vətəndaş cəmiyyəti 20 illik inkişafı yüksək dəyərləndirir

**"Ümummilli lider Heydər Əliyevin siyasi varisi, ideya və əməllərinin sadiq davamçısı İlham Əliyevin 20 il əvvəl Azərbaycan Prezidenti seçilməsi xalqımızın və ölkəmizin taleyində yeni inkişaf mərhələsinin başlanğıcı olub. Bu dövrdə cəmiyyətimizin həyatında inqilabi dəyişikliklər baş verib".**



***Azərbaycanın qeyri-hökumət təşkilatlarının İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsinin 20-ci ildönümü ilə əlaqədar yaydığı bu bəyanatın davamında deyilir:*** "Ümummilli lider Heydər Əliyevin formalaşdırdığı sağlam və möhkəm təməl üzərində Prezident İlham Əliyevin inşa etdiyi güclü və müasir Azərbaycan bir çox taleyüklü problemləri geridə qoyaraq, gələcəyə doğru inamla addımlayan ölkələr sırasında öz layiqli yerini tutub. Bu gün Azərbaycan həm də vətəndaş cəmiyyətinin güclü olduğu ölkədir, qeyri-hökumət təşkilatlarının sərbəst fəaliyyəti üçün ötən onilliklər ərzində zəngin qanunvericilik bazası, əlverişli mühit formalaşıb, bu sektorun inkişafı üçün mühüm qərarlar qəbul olunub".

***Sənəddə daha sonra bildirilir ki, 2003-cü ildə İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsindən sonra vətəndaş cəmiyyətinin həyatında yeni inkişaf mərhələsi başladı, bu sahəyə konseptual yanaşma ortaya qoyuldu:*** "Prezident İlham Əliyev qısa müddətdə qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi Konsepsiyasını təsdiq etdi. Bu konsepsiya dövlət orqanları və vətəndaş cəmiyyəti institutlarının əməkdaşlıq mexanizmlərini xeyli təkmilləşdirdi və genişləndirdi. Bundan sonra qanunçuluq, tərəfdaşlıq, şəffaflıq, uzlaşdırma və məsuliyyət qeyri-hökumət təşkilatlarına dövlət dəstəyinin 5 əsas prinsipi kimi müəyyən edildi".

Bəyanatda qeyd edilir ki, 2003-cü il, 2008-ci il, 2013-cü il, 2018-ci il prezident seçkilərinin nəticələri bir daha göstərdi ki, Azərbaycan xalqının seçimi yalnız Prezident İlham Əliyevdir. 2020-ci ildə 44 günlük Vətən müharibəsi isə Azərbaycan cəmiyyətinin ən ağrılı yarası olan münaqişəni geridə qoydu, Prezident İlham Əliyev müzəffər Ali Baş Komandan kimi hər bir azərbaycanlıya qələbə sevincini bəxş etdi.

***Postmüharibə dövrünün vətəndaş cəmiyyəti qarşısında da yeni məqsəd və vəzifələr müəyyənləşdirməsi ilə bağlı sənəddə deyilir:*** "2021-ci ilin aprelində Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin yaradılması dövlət və cəmiyyət həyatında qeyri-hökumət təşkilatlarının rolunun artırılması, fəaliyyətinin yeni dövrün çağırışlarına uyğun təşkili, bu sahədə həyata keçirilən dövlət dəstəyinin təşkilati-hüquqi əsaslarının və mexanizmlərinin təkmilləşdirilməsi sahəsində daha bir addım oldu. Ötən 20 illik dövr bir daha göstərdi ki, Prezident İlham Əliyevin vətəndaş cəmiyyəti institutlarının inkişafı üçün aydın proqramı var. QHT-lərin cəmiyyət və dövlət həyatında fəal iştirakının təmin edilməsi, dövlət və ictimai maraqların qorunmasında rolunun gücləndirilməsi əsas məqsədlərdən biridir və bu istiqamətdə ardıcıl siyasət aparılır."

***Bəyanatın sonunda bildirilir ki, Prezident İlham Əliyev Azərbaycan xalqını və cəmiyyətini arzularına qovuşdurur:*** "Onun liderliyi ilə ötən 20 ildə tarix, indiki və gələcək nəsillər qarşısında misilsiz xidmətlərə imza atılıb. Sosial-iqtisadi inkişaf, təhsil, mədəniyyət, ümumən dövlət həyatının bütün sahələrində parlaq nailiyyətlər əldə olunub. Azərbaycan beynəlxalq aləmdə böyük nüfuz və hörmət qazanıb, söz sahibinə çevrilib. Biz, qalib ölkənin qalib vətəndaşları, Azərbaycan vətəndaş cəmiyyətinin təmsilçiləri kimi Sizinlə fəxr edirik, cənab Prezident!".

***XQ***

Xalq qəzeti .- 2023.- 15 oktyabr, № 225.- S.8.